**UOT 75**
**https://doi.org/10.59849/2311-8482.2025.1.222**

**KƏMALƏ İSLAMOVA ***

# TEATR TAMAŞALARININ SƏHNƏQRAFİYA ÖZƏLLİKLƏRİ

*Azərbaycan mədəniyyətində teatr sənətinin xüsusi yeri və rolu vardır. Sinkretik sənət növü kimi teatr özündə söz, musiqi, hərəkət, rəssamlıq və digər sahələri birləşdirir. Teatr sənətinin isə öz növbəsində tərkib hissəsindən biri səhnəqrafiyadır, yəni teatr-dekor sənətidir. Dekorasiya hər bir sənət əsərinin tamaşaya qoyulmasında mühüm rol oynayır və tamaşaların uğur qazanmasında da, aktyorların istedadi və məharəti, əsərin mükəmməllyi ilə yanaşı əhəmiyyətə malikdir. Səhnəqrafiya və ya teatr-dekorasiya sənəti özündə tamaşanın tərtibatını ehtiva edən bədii fəaliyyət növü sayılır. Teatr- dekorasiya sənətinin tərkib hissələri – səhnədə qurulan dekorasiya, aktyorların geyimi, onların qrimləri, səhnəyə verilən işıqlar, yəni səhnənin işıqlandırılması, səhnədəki mebellər, əşyalar və butaforiya və s. ibarətdir. Səhnəqrafiya birbaşa səhnədə oynanılan tamaşanın əyani obrazının yaradılmasıa xidmət edən sənət növüdür.*

***Açar sözlər:*** *Teatr, dekorasiya, səhnə, rəssam, obraz, tərtibat.*

## Giriş

Azərbaycanın milli mədəniyyət və incəsənətinin ən fəal tərkib hissəsi olan teatr-dekorasiya sənəti – tərtibat, geyim-əlbisə, qrim, işıq, mebel, butaforiya və s. vasitəsilə səhnə tamaşasının əyani obrazını yaradır. Tədqiqatçılarımız teatr tariximizin milli sənət təfəkkürümüzün hər hansı bir janrla bağlılığını vurğulayırlar. Həmin janrlar vasitəsilə incəsənətin sintetik növlərindən olan teatrda tamaşanın bədii tərtibatı dramaturji əsərin ideya məzmununun açılmasında mühüm rol oynayır. Burada hadisələrin cərəyan etdiyi dövrün yerli və milli koloriti səhnədə canlandırılır, səhnə əsərinin janrına və üslubuna uyğun dekorasiya, əlbisə, işıq və s. bədii təsvir və ifadə vasitələrindən istifadə edərək obrazların fərdi xarakteristikası daha dolğun nəzərə çatdırılır.

## Əsas məzmun

Peşəkar teatrın inkişafı ilə səciyyələnən bəşər sivilizasiyasının müasir dönəmində dramaturgiya və aktyor sənəti ilə yanaşı – şərti olaraq səhnəqrafiya adı ilə işarə olunan – yeni bədii yaradıcılıq növü də meydana gəlmişdir. Bu sahə, – tamaşanın göstərilməsi üçün təchiz edilmiş və səhnə adlanan xüsusi fəzanın, həmçinin tamaşa ifaçılarının əhatəsində bulunan, onların təmasda olduqları, üzərilərində daşıdıqları – hər bir şeyin bədii-estetik tərtibatı ilə məşğuldur. Nəticədə isə, səhnəqrafiya – səhnə məkanı və tamaşa müddətinin uzanan zaman kəsiyi çərçivəsində – ümumilikdə tamaşaya xas olan özünəməxsus təsviri-plastik obrazın formalaşdırılmasına xidmət edir.

Hərfi baxımdan "tərtib etmək, nəyi isə bəzəmək" mənasını ifadə edən "dekorasiya sənəti" termini tarixi baxımından şərtləndirilib. Buna görə də, bir çox tədqiqatçıların zənn etdiyi kimi, müasir incəsənətin mahiyyətinə cavab vermir, sadəcə olaraq dəzgah boyakarlığının "sırf rəngkarlıq" üsullarına əsaslanan səhnə tərtibatının müəyyən inkişaf dövrünü səciyyələndirir. 1920-ci illərdə meydana gələn "tamaşanın əşyavi tərtibatı" termini müəyyən teatr istiqamətinin estetik mövqeyini əks etdirirdi və hər hansı bir universal tətbiqə iddia edə bilmirdi. Məhz buna görə hazırki dövrdə "dekorasiya sənəti" termini "səhnəqrafiya" termini ilə əvəz olundu.

Heç də yeni olmayan və müxtəlif dövrlərdə tez-tez istifadə olunan "səhnəqrafiya" termini haqqında Q.K.Lukomski belə yazırdı: "Səhnəqrafiya – səhnənin bədii tərtibatı ... Esxil-Sofokl dövründə meydana gəlmişdir" (2, 129). Burada belə bir ehtimal etmək münasib olar ki, hazırki "səhnəqrafiya" termini vaxtilə "səhnənin divar boyakarlığı", yəni səhnənin tərtibatında "rəngkarlıq perspektivlərinin" istifadəsi kimi başa düşülən "skenoqrafiya" termininin transformasiyasıdır (2, 12). Bunun təsdiqini biz Vitruvidə tapırıq: "Skenoqrafiya – nisbətlərinə riayət edilərək yaradılmış gələcək binanın zahiri görünüşünün və fasadının rəsmidir" (1, 26) (nəzərə alsaq ki, skena, qarşısında tamaşa oynanılan meydançası olan teatr binasının fasadıdır).

İlk baxışdan səhnə-qrafiya sözünün özünün strukturunu təlqin edir ki, bu da rəssamın teatrda fəaliyyətinin səciyyəsini daha dolğun əks etdirir. "Stenoqrafiya/skenoqrafiya" (yəni səhnə-qrafiya)

termini, indiki mənasında teatr sənətinin məşhurlaşdığı son dövrdə işlənməyə başlasa da, əslində bir o qədər də yeni deyil və tarixin bir çox mərhələlərində müxtəlif mənalarda istifadə edilmişdir. "Səhnəqrafiya" sözündən törəmiş "stenoqraf" termini də kifayət qədər geniş yayılmışdır. Onun vasitəsilə tamaşanın səhnə məkanının təşkili ilə bilavasitə əlaqəsi olan yaradıcı işçilər teatrda öz peşələrinin spesifikasını qeyd edirlər.

Əvvəllər hesab olunurdu ki, (belə fikir indi də qalmaqdadır) hər bir peşəkar rəssam, istər dəzgah rəngkarı olsun, istərsə də qrafik, tamaşanın savadlı tərtibatını verə bilər. Əgər rəssamın vəzifələrini məzmun baxımından hazır tamaşanın tərtibatı ilə məhdudlaşdırsaq, yəni teatr əsərinə, onun surət düzümünə (yəni haradasa zahiri və vacib olmayan) rəngkarlıq, qrafika və s. kimi əlavə sənət növlərindən götürülmüş təsvir cizgilərini əlavə etsək, bunu düzgün hesab etmək olar. Lakin teatr, xüsusilə müasir teatr yeni tələblər irəli sürür, teatr rəssamının tamaşanın bədii tamlığının yaradılmasındakı rolunu başqa cür qiymətləndirir ki, bu da öz növbəsində ixtisaslaşmanı, teatra təmayülünü, yönəldilməni tələb edir (10, 3).

Bu gün "stenoqraf" mənasının məzmunu təkcə rəssamın yaradıcılıq fəaliyyətinin göstərilməsi ilə məhdudlaşmır, bu məfhuma bir sıra digər teatr peşələri də daxildir. Təsdiq edirlər ki, "stenoqraf" – bu həm də teatr texnoloqudur, teatr memarıdır, konstruktor və teatr mühəndisidir (100, 4). Belə bir şərh onunla bağlıdır ki, incəsənət sahəsində (teatrda) ilk dəfə olaraq biz texniki peşələrlə rastlaşırıq və bu təkcə mühəndis məsələləri ilə kifayətlənmir, eyni zamanda incəsənətin yaradıcılıq prosesinə, tamaşanın məkan surətinin yaradılmasına daxil olur. Burada əsas məsələ – yaradıcı müştərək müəlliflik. Bu zaman texniki axtarışlar tamaşanın bütöv strukturunun yaradılması ilə paralel gedir (məsləhətləşmə və ya "sifarişlə" hazırlanan müəyyən konstruksiyaların hazırlanması ilə məhdudlaşmır). Bədii əsərin yaradılması prosesində meydana gələn belə qarşılıqlı təsir teatr sənətinin yeni imkanlarını aşkar edir. Lakin belə bir müştərək müəllifliyin baş tutması üçün teatra "texniklər" və "təmiz" rəssamlar deyil, stenoqraflar lazımdır. Başqa sözlə desək, teatr tamaşasının yaradılmasında iştirak edən hər bir peşə bu sənət növündə sapdırılmalı, onun mahiyyəti ilə hopdurulmalıdır.

Tamaşanın bədii tamlığının vacib anı olan və "tamaşa quruluşunun bütün texniki və bədii vasitələrinin, o cümlədən ətraf mühitin məcmusunu nəzərdə tutan "Səhnəqrafiya" anlayışını dəyərləndirən V.Y.Bıkovun (45, 12) fikrinə şərik olan V.V.Bazanov, səhnəqrafiya elminə belə bir tərif verir: "Səhnəqrafiya – teatrın bədii-texniki vasitələri haqqında elmdir. Səhnə əsərinin reallaşdırılmasında istifadə olunan bütün bədii-dekorasiya və texniki vasitələr səhnəqrafiya tərəfindən tamaşanın bədii formasını yaradan elementlər kimi baxılır" (4, 5). Sonra müəllif "Teatr sənəti və səhnə texnikası" məqaləsində bu elmin əsas istiqamətlərini qeyd edir (4, 69). Bu kimi elmin yaradılmasına çağırış V.V.Listovskinin məqaləsində də səslənir (6, 71).

Öz təşəkkül dövrünü müəyyən tərəqqiyə nail olmuş keçmiş Azərbaycan teatrında da səhnəqrafiya sahəsi kifayət qədər yetişmiş, tarixdə və günümüzdə tərifəlayiq nümunələri ilə tanınmışdır.

Teatrın, xüsusən musiqili teatrın səhnəqrafiya təbiəti sintetikdir. Hərəkət-oyun səciyyəsi əsasında o, rəngkarlıq, memarlıq, hadisənin plastik təşkilini musiqi, ritm, xoreoqrafiya və sözlə birləşdirir. Stenoqrafın, bəstəkarın, xoreoqrafın, geyim və işıq üzrə rəssamın yaradıcılığı, qrim üzrə rəssamın, dekoratorun və s. ustalığı müasir musiqili teatrında bədii vahidin təcəssümünə tabedirlər.

Teatr – həyati konflikt, hərəkət, inkişaf vəziyyətində təsvir edən hadisələrlə dolu incəsənətdir. Musiqili teatr sənəti bu mənada həmişə dramatikdir. Bu dramatizm komediya səviyyəsində özünü göstərir, libretto və musiqili partiturada açılır. O, özünün bədii dilinə, ifadə-təsvir vasitələri sisteminə və estetik prinsiplərinə malikdir.

Səhnəqrafiya adlandırılan teatr-dekorasiya sənəti, teatr tamaşasının bədii tərtibatı ilə, yəni dramatik və musiqili-dramatik əsərlərdə hərəkət edən qəhrəmanların, eləcə də onların özlərinin surətlərinin teatr səhnəsində həyat məkanın yaradılması ilə bağlı təsviri sənət növüdür (7, 21). Başqa sözlə, teatr-dekorasiya sənətinin əsas elementləri olan dekorasiyalar, işıqlandırma, butaforiya və rekvizit, kostyumlar və aktyorların qrimi tamaşanın niyyətinə tabe olan səhnə əhvalatının məna və xarakterini əks etdirən yeganə bədii vahididir. Teatr-dekorasiya sənəti teatrın inkişafı ilə sıx bağlıdır.

Beləliklə, teatr-dekorasiya sənəti teatrın vacib komponentlərini təşkil edir. Bədii yaradıcılıq növü olan teatr-dekorasiya sənəti tamaşanın tərtibatı ilə və onun səhnə zamanında və məkanındakı

təsvir-plastik surətinin yaranmasına yönəlib. Tamaşada teatr-dekorasiya sənətinə aktyoru əhatə edən (dekorasiya), onun oyununa, hərəkətinə təkan verən (maddi-əşyavi atributlar) və onun əynində olan (kostyum, aktyor qrimi, maska, onun zahiri görünüşünü dəyişən başqa vasitələr) hər şey aiddir. Bununla belə teatr-dekorasiya sənətinin ifadə vasitələri qismində digər ünsürləri də istifadə etmək olar: birinci növbədə təbiətin yaratdığını, daha sonra məişət və ya istehsalat əşyalarını və fakturasını və nəhayət rəssamın yaradıcılığı nəticəsində meydana gələn maskalardan, kostyumlardan və əşyavi rekvizitdən başlamış rəngkarlıq, qrafika, səhnə məkanı, işıq, dinamika və s.

Tamaşanın bədii tərtibatının əsasını hadisənin məkanını və zamanını təsvir edən dekorasiya təşkil edir. Dekorasiyanın konkret forması (kompozisiya, koloristik quruluş və s.) təkcə əhvalatın məzmunundan deyil, onun xarici şərtlərindən (əhvalat məkanının daha sürətli dəyişilməsindən, dekorasiyanın tamaşa zalından qavrama xüsusiyyətlərindən, onu müəyyən işıqlandırma ilə uyğunluğundan) asılıdır.

Səhnədə təcəssüm etdirilən obraz ilk növbədə rəssam tərəfindən eskizdə və ya maketdə yaradılır. Eskizdən maketə, sonra da səhnənin tərtibatına kimi yol dekorasiyanın daha ifadəliliyinin və onun bədii bütövlülüyünün axtarışları ilə bağlıdır. Ən yaxşı teatr rəssamlarının yaradıcılığında eskiz təkcə səhnə tərtibatının işçi planı kimi deyil, eləcə də nisbətən müstəqil bədii əsər kimi əhəmiyyət kəsb edir.

Teatr dekorasiyasına səhnə çərçivəsi, xüsusi pərdə (və ya pərdələr), səhnənin səhnə məkanının təsvir həlli, kulislər, arxa plan və s. daxildir. Həyat məkanının səhnədəki təsvir üsulları müxtəlifdir. Dövrün realistik incəsənəti ənənəsində mənzərəli həllər üstünlük təşkil edir. Bununla belə, müstəvi elementlər adətən inşa edilmişlərlə (həcmli və ya yarım həcmli) hadisənin vahid məkan illüziyasını yaradan bütöv surətdə birləşirlər. Lakin dekorasiyanın əsasını bədii-ifadəli konstruksiyalar, proyeksiyalar, drapirovkalar, şirmalar və s., eləcə də müxtəlif təsvir üsullarının ahəngi təşkil edir (5, 12). Bununla belə, səhnə texnikasının inkişafı və təsvir üsullarının genişlənməsi rəngkarlığın bütövlükdə teatr-dekorasiya sənətinin əsası kimi əhəmiyyətini inkar etmir. Hər bir tək-tək hallarda təsvir üsulunun seçimi səhnəyə qoyulan əsərin konkret məzmunu, janrı və üslubu ilə müəyyənləşir.

Teatr-dekorasiya sənəti bütövlükdə bədii mədəniyyətin inkişafı ilə dəyişir. O, hakim bədii üslubdan, dramaturgiyanın tipindən, təsviri sənətin vəziyyətindən, eləcə də teatr binalarının və səhnələrin quruluşu, işıqlandırma texnikasından və bir çox digər konkret tarixi şərtlərdən asılıdır.

Teatr dekorasiyalarının icrası ilə məşğul olan rəssam-dekorator rəngkara ümumiyyətlə lazım olan daha artıq hazırlığa, bəzi xüsusi biliklərə malik olmalıdır: o, xətti və hava perspektiv qanunlarını mükəmməl bilməli, son dərəcə geniş yazı üsuluna yiyələnməli, öz koloritini adətən səhnə tamaşalarında baş verən odlu işıqlandırmaya uyğunlaşdırmağı bacarmalıdır. Ümumiyyətlə, hesab etməlidir ki, onun əməyi nəticəsində oynanılan pyesin mənzərəli mühiti meydana gəlir və ona nəinki özünün lazımsız sadəliyi və qəribəliyi ilə ziyan vurmur, eləcə də tamaşaçıya təsir edən təəssüratın gücünə və ciddiliyinə səbəb olur. Tamaşanı incəsənətin kollektiv əsəri kimi səciyyələndirərkən teatr rəssamının yaradıcılığının “müstəqil olmamağı” haqqında suala aydınlıq gətirmək lazımdır. Rejissorla iş zamanı dekoratorçu-rəssam işçi eskizdə əksini tapan ilkin niyyətdən tərtibatın son variantına kimi mürəkkəb yol keçir. Tamaşanın uğurlu həllinin təminatı quruluşçu ilə rəssamın sıx yaradıcılıq birliyindədir. Bircə onu qeyd etmək lazımdır ki, rəssama müstəqil bədii obrazın axtarışlarında müəyyən sərbəstlik vermək lazımdır.

Quruluşçu rəssam səhnənin “tərtibatı” üzərində deyil, tamaşanın forması üzərində, onun bütöv obrazı üzərində işləyir. O, pyesi illüstrə etmir, rejissorla birgə onun dramatik hadisəsini açır, tamaşanın ideya mənasının təyin olunmasında və onun xarakterinin müəyyən olunmasında iştirak edir. O, dramatik hadisə üçün neytral, tarixi və muzey səhihliyi ilə seçilən fonu yaratmır. Öz sənətinin vasitələri ilə mühitin və iştirakçıların xarakteristikasını verir, təsvir olunan dövrün tarixi üslubunun elementlərini göstərmir, onun üslub mahiyyətini ifadə edir. Bir sözlə, quruluşçu rəssam pyesin məzmununu və formasını, dramaturqun dünyagörüşünü və yaradıcı metodunu dərindən başa düşməlidir, dərindən dərk etməlidir. Rəssamın mədəni və bədii səviyyəsinin aşağı olması mütləq tamaşanın həcm-məkan formasını aşağı salacaq. Bu forma zəngin və məzmunlu olmalıdır. Pyesin ideya mahiyyətinin dərindən açılmasına təkcə rejissorla aktyor cavabdeh deyillər, bu cavabdehliyi onlarla tamaşanın rəssamı da paylaşdırır (7, 51).

**Nəticə**

Səhnənin aktyorsuz qəfəsəsini ərsəyə gətirməklə aktyorların gəlişinə zəmin yaradan rəssamın, sonuncu işi tamaşanın işıqlandırılması məsələsi olur. Əvvəlki dövrlərdən fərqli olaraq müasir dövrdə çox vaxt ağır dekorasiyaları, müxtəlif səhnə texnikasını əvəzləyə biləcək bu işıq effektlərindən istifadənin bu günkü səhnəqrafiyanın ayrılmaz tərkib hissəsidir.

Teatr-dekorasiya sənətinin ayrılmaz hissəsi olan bütün bu yaradıcı proseslərin istedadla gerçəkləşdirlməsinin tamaşanın uğurunu təmin edəcək sonluğa gətirib çıxarması birmənalıdır.

## ƏDƏBİYYAT

1. Əbdürrəhmanov, A. Teatrda rəssamın rolu. Bakı: Elm və təhsil, 2012,102 s.
2. Bəykişiyev, N.Z. Tamaşanını bədii bütövlüyündə səhnə tərtibatının rolu. Metodik vəsait. Bakı: 2006, 85 s.
3. Bəykişiyev, N.Z. Teatr rəssamının kostyum üzərində işi. Metodik vəsait. Bakı: 2006, 98 s.
4. Rəhimli, İ. Azərbaycan teatr tarixi. Bakı: Çaşıoğlu, 2005.
5. Sadıxbəyova, S.R. Azərbaycan Opera və Balet teatrı rəssamlarının teatr-dekorasiya sənəti. Nam. diss. avtor. Bakı: 2004.
6. Səfərəliyeva, D.A. Sovet Azərbaycanının teatr-dekorasiya sənəti – Bakı: Azərnəşr, 1968.
7. Şükurova, S.İ. Azərbaycan sovet dövrü teatr-dekorasiya sənəti (1946-1985-ci illər). Nam. diss. Avtoreferatı. Tbilisi: 1990.
8. Базанов, В.В. Искусство театра и техника сцены // В кн.: Наука о театре. Л., 1975.
9. Базанов, В.В. Эстетические функции театральной техники. Автореферат дисс. на соиск. уч, ст. канд, искусствоведения. Л., 1971.
10. Рындин, В.Ф. Художник и театр. М.: ВТО, 1966.

**** Azərbaycan Dövlət Rəssamlıq***
***Akademiyasının Qeydiyyat-monitorinq və Məzun mərkəzinin müdiri,***
***sənətşünaslıq üzrə fəlsəfə doktoru,***
***E-mail: kemale-islamova@mail.ru***

**Kamala Islamova**

## FEATURES OF SCENOGRAPHY OF THEATRICAL PERFORMANCES

Theatre art has a special place and role in Azerbaijani culture. As a syncretic art form the theater combines the word, music, movement, painting and other areas. One of the components of theatrical art, in turn, is scenography, that is, theater-decor art. Decoration plays an important role in the performance of each work of art, the talent and skill of the actors, along with the perfection of the work, are important in the success of the performances. The art of staging or theatre-decoration is considered as a type of artistic activity, which includes the design of the performance. The components of theatre consist of - decoration art – scenery on the stage, actors' costumes, their make-up, lights given to the stage, i.e. lighting of the stage, furniture, objects and things on the stage and so on. Scenography is an art form that serves to create a visual image of a performance performed directly on stage.

**Keywords:** *theater, decoration, stage, artist, image, design*

**Камаля Исламова**

## ОСОБЕННОСТИ СЦЕНОГРАФИИ ТЕАТРАЛЬНЫХ ПРЕДСТАВЛЕНИЙ

Театральное искусство занимает особое место и роль в азербайджанской культуре. Театр как синкретическая форма искусства сочетает в себе слово, музыку, движение, живопись и другие области. Одной из составных частей театрального искусства, в свою очередь, является сценография, то есть искусство театрального декора. Декорации играют важную роль в постановке каждого произведения искусства, а талант и мастерство актеров, а также совершенство работы имеют важное значение для успеха спектакля. Сценография или театральная декорация считается видом художественной деятельности, которая подразумевает оформление спектакля. Составными частями театрально-декорационного искусства являются декорации, установленные на сцене и состоит из одежды актеров, их грима, светового оборудования сцены, то есть освещения сцены, мебели, предметов и реквизита на сцене и т.д. Сценография - вид искусства, служащий для создания визуального образа спектакля, исполняемого непосредственно на сцене.

**Ключевые слова:** *Театр, декорация, сцена, художник, образ, дизайн.*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 20.01.2025**
**Son daxilolma tarixi:29.02.2025**